**Seymur Baycan**

# ALINMAYAN HEKAYƏLƏR

qanun nəşriyyatı

Realizm Seymur Baycan üçün həmişə hakim ədəbi cərəyan olub. Onun hekayələri səs-küysüz, bər-bəzəksiz, kənardan olduqca təbii görünən həyati situasiyalardan və bunların yaddaşda yaratdığı əks-sədalardan ibarətdir.

"Alınmayan hekayələr" kitabı da məhz bu bünövrənin üstündə inşa olunub. Həyatın qarışıqlığı içində itmiş, üstünü toz tutmuş hadisələr, dadlar, ifadələr, davranışlar, peşmanlıqlar, sevinclər, məqsədlər, prinsiplər Seymur Baycanın "Alınmayan hekayələr"ində üzə çıxır, gözlərini həyata yenidən açır.

O, həyatın ən incə detallarına toxunur, toxunduğu detallarla zəmanəmizin xarakterlərini, dövrün mənzərəsini, bu mənzərənin içində vurnuxan obrazları yaradır.

**Seymur Baycan. ALINMAYAN HEKAYƏLƏR**
Bakı, Qanun Nəşriyyatı, 2023, 256 səh.

Janr:fiction/hekayələr
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 23.07.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Korrektor: | Əyyar Tahir |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-759-9

© Qanun Nəşriyyatı, 2023
© Seymur Baycan, 2023

## MÜƏLLİFDƏN

*Ürəyimdə kədərdən başqa heç nə olmadığı, mənim üçün az qala bütün hadisələrin əhəmiyyətini itirdiyi bu günlərdə hər şey haqqında açıq söhbət edəcəyim bir adam varsa, o da sənsən. Bu dəqiqə səninlə söhbət etməyə dəhşətli dərəcədə ehtiyac hiss edirəm. Dörd ildən artıqdır, elə bir gün olmayıb ki, sənin haqqında düşünməyim, səni xatırlamayım. Hara getmişəmsə, gözlərim hər yerdə səni axtarıb.*

*Hətta sən ola bilməyəcəyin yerlərdə belə səninlə qarşılaşmağı arzulamışam. Tiflisdə, Azadlıq meydanının yaxınlığında bir kafe var. Ofisiant qız sənə oxşayır deyə, hər gün səhər o kafeyə gedirəm. Çay, tort sifariş verib kitab oxuyuram. Ən əsası sənə oxşayan ofisianta baxıram. O da sənin kimi bəstəboy, saçları uzun, üzü çilli bir qızdır. Bəzən istəyirəm ona niyə hər gün bu kafeyə gəldiyimin səbəbini deyəm. Amma bunun yersiz çıxacağından, düzgün başa düşməyəcəyindən qorxuram.*

*Bu ötən illərdə sənin söhbətlərini, hərəkətlərini nə qədər xatırladığımın sayı-hesabı yoxdur. Mən həmişə özünü ifadə etmədən itib-batan istedadlı adamların aqibətinə ağrımışam. Sən həyatda gördüyüm ən istedadlı qızlardan biri idin. Sənin qədər ədəbiyyatı hiss edən, sənin qədər bədii təfəkkürü*

*olan adama həyatımda çox az rast gəlmişəm. Heyf ki, sən öz istedadını səndən asılı olmayan səbəblər üzündən inkişaf etdirə bilmədin, cəmiyyətdə layiq olduğun yeri tutmadan sakitcə itib-batdın. Bu haqda düşünəndə ürəyimin dərinliyinə qədər kədərlənirəm.*

*Sənin pak, səmavi sevgin məndə özünə inam hissi yaratdı. Heç kimin tərifinə ehtiyacım qalmadı. Dayanmadan məruz qaldığım saysız-hesabsız təhqirlər isə mənə təsir etmədi. Çünki milyonda bir insanın nəsibi olan səmavi bir sevgi nəsibim olmuşdu.*

*Mən sənin bütün arzularına layiq idim. Sadəcə alınmadı. Nə edəsən, alınmayanda alınmır. Buna baxmayaraq, özümü sənin qarşında günahkar hiss edirəm. Bu son dörd ildə nə yazmışamsa, nədən yazmışamsa yalnız sənin üçün, sənin qarşında olan günahımı yumaq, günahımı yüngülləşdirmək üçün yazmışam. Bu dəqiqə şəxsi sarsıntılarımı ifadə etməmək üçün böyük güc sərf etməkdəyəm…*

*Sənin səmavi sevgin həyata baxışımı tamam dəyişdi. Bu sevginin təsirindən təbiəti, həyatı, həqiqi ədəbiyyatı, müxtəlif dövrlərdə yaşamış sənətkarların ağrılarını və iztirablarını daha canlı hiss etdim. Sənin pak, səmavi sevgin olmasaydı, mən bu qədər davam gətirə bilməzdim. Sənin haqqında düşüncələrim, özümü sənin qarşında günahkar hiss etməyim məni dəfələrlə hər cürə məhv olmaqdan xilas edib. Hər şey üçün milyon dəfə təşəkkür edirəm.*

# HÖRÜMÇƏK TORU

Qənimət iş paltarını çıxarıb, əyninə nazik, zolaq-zolaq, göy rəngli yay pijaması geyinib eyvana çıxdı. O, ucaboylu, qarınlı kişi idi. İri ağzı, qalın, həmişə nəm olan dodaqları, dördkünc, böyük çənəsi, yastı, enli burnu, ümumiyyətlə, çöhrəsinin aşağı qisminin inkişaf etmiş olması adama ilk baxışda hərislik, acgözlük təsiri bağışlayırdı. O, durduğu yerdə cibindən pul çıxarıb sayar, yenə qaytarıb cibinə qoyardı. Adi mövzularda asta danışardı. Elə asta ki, lazım olan vaxt səsini kəsib susa, ya da söhbəti tamam dəyişə, dediyini inkar edə bilərdi.

Uzaqdakı binalar elə bil boz örtüyə bürünmüşdü. Adətən gündüzün bürküsü axşama yaxın çəkilib zəiflədiyi zaman şəhərin binaları belə görkəm alırdı. Sahilə bir dolça soyuq ayran gətirib üç ayaqlı stolun üstünə qoydu və mətbəxə qayıtdı. Qənimət dolçanın tərləməsindən başa düşdü ki, arvadı onu soyuducudan təzə çıxarıb. İçinə xırda-xırda şüyüd və xiyar doğranmış ayranı başına çəkib içəndə Qənimətin bütün bədəninə sərinlik yayıldı. Dilini bacardığı qədər çölə çıxarıb dodaqlarını yaladı, ar-

vadını səslədi. Sahilə əlində gümüşü qaşıq eyvana çıxdı. O zahirən ləng, ağır görünsə də, daima sümük ağrılarından şikayətlənsə də, yataqda qızğın çeviklik nümayiş etdirirdi. Bu coşqun temperamenti gizli saxlamaq ustalığı, metamorfozası ilə hər dəfə ərini təəccübləndirməyi bacarırdı.

– Məni çağırdın, yoxsa qulağıma səs gəldi?

– Bugünkü ayranın aləmdir. Beləsini içməmişdim.

Ərinin sözləri Sahilənin xoşuna gəldi. Gözlərini süzdürdü:

– Elə həmişəki ayrandı.

– Yox, bugünkü ayranın dadı başqadı. Mən nə dediyimi bilirəm. Mənə nə gəlib ki, yaşımın bu vaxtında durub yalandan ayran tərifləyim.

Ərinin sözlərinə nə cavab verəcəyini fikirləşə-fikirləşə Sahilə eyvandan mətbəxə keçdi. Elə bir tutarlı cavab tapmadığına görə ərinin sözlərini cavabsız qoymaq qərarına gəldi. Həm də cavabın vaxtı artıq keçmişdi. Belə sözlərə gərək vaxtında cavab verəsən. İndi cavab verməyin də bir mənası qalmamışdı. O, eyvana qayıdıb podnosda gətirdiyi yarpaq dolması ilə dolu boşqabı, doğranmış pomidor-xiyarı, bir kasa qatığı masanın üstünə qoyanda əri soruşdu:

– Mübariz hardadı?

– Harda olacaq, plyajda. Səhər tezdən gedəndi. Yenə bilsəm kiminlə gedir, narahat olmaram. Keçən bazar günü onu plyajda qızlarla görüblər.

– Kim görüb? Hər deyilənə inanma. Kim nə istəyir, qoy danışsın. Hər halda bir gün yorulub yerlərinə oturacaqlar, – Qənimət dolmanın üstünə iki qaşıq qatıq töküb arvadına baxdı.

– Uzaq adam deməyib, yaxın adam deyib. İki oğlan olublar, üç qız. Günün altında uzanıb bədənlərini qaraldırmışlar.

Sahilə bu sözləri elə tərzdə dedi ki, guya belə bir hadisə olacağından ərini dəfələrlə xəbərdar etmişdi, indi də məhz onun dediyi kimi olmuşdu və bu da ərinin günahı idi.

– Sənin adətindi, qaşınmayan yerdən qan çıxarırsan. Günün altında uzanıb bədənini qaraldan gənclərə mane olmaq müasir həyat etikasına uyğun gəlmir. Bədəni qaraltmaq kimi şeylər indi çox vacibdi. Sənin ağlın öz cavanlıq dövrünə getməsin. O vaxtdan həyat çox inkişaf edib. Vaxtı ilə bizim çəkdiyimiz məhrumiyyətləri indiki cavanlar görməyiblər. İndi hamı yaxşı geyinmək, yaxşı istirahət etmək istəyir. Əgər hamı yaxşı geyinirsə, nə üçün bizim oğlumuz başqalarına baxanda xəcalət çəkməlidir, dostlarının yanında başı aşağı olmalıdır? Əgər biz oğlumuzun tələblərini təmin etməsək, uşaq ruh düşkünlüyünə qapılar, bu da onu hər şeydən soyudar… Mən evlənəndə toyda geyinməyə təzə kostyum tapmırdım. Bunu heç özümə dərd də etmirdim. Köhnə, yamaqlı kostyum geyinmək də ayıb sayılmırdı. Çünki hamı eyni

dərddə idi. İndi zəmanə dəyişib. Mübarizin dörd kostyumu var, amma yenə də kostyum istəyir. Gileylənir ki, başqaları gündə bir kostyum geyinir. Dörd kostyum... Mən cavan olanda dörd kostyumu heç yuxumda da görməzdim. Niyə? Çünki o vaxt velvet kostyumu nəinki geyən, heç adını belə eşidən yox idi. Mən elə əziyyətlə böyümüşəm ki, Allah heç kimə göstərməsin. Ən böyük arzum o idi ki, bircə dəfə doyunca peçenye yeyim. Mən yazıq nə gördüm ki, dünyada?

Qənimət sözlərini aram-aram deyirdi. Sanki dediklərinin arvadının şüuruna çata bilməyəcəyindən qorxurdu. O, oğlunun pis tərəflərini görməyən, görsə də, başqalarından, lap öz-özündən də gizlətməyə çalışan, bəzən bu məsələdə ifrata yol verən atalardan idi. Bununla belə arvadının sözləri onu narahat etmişdi: iki oğlan, üç qız... Bu çox qorxulu haldır.

Ev sahibi tikəsini çeynəyə-çeynəyə tavana baxırdı. Çənəsini işlətdiyi zaman onun qaşları, qulaqları da tərpənirdi. O, stola yaxın oturmağa adət etməmişdi, buna görə də çörək qırıntıları əlindən, ağzından stola yox, dizinə, yerə tökülərdi. Heç bir hadisə onun yemək yeməyinə mane ola bilməzdi. Əgər yemək yediyi vaxt evin divarı uçsaydı, o, bir əli ilə uçan divarı saxlayıb, o biri əli ilə yeməyini yeməyə davam edəcəkdi. Onda lap əvvəldən, təxminən institutu bitirəndən sonra belə bir qənaət əmələ gəlmişdi ki, bir çox kişilərin yolunu azmasında

arvadlar müqəssirdir. Oğluyla bu gün açıq danışmaq qərarına gəldi. Birdən gözləri tavanın küncündə qurulmuş hörümçək toruna sataşdı. Qənimət oğluna həyatı başa salmaq üçün əyani vəsait tapdığına görə sevindi.

***

– Gör nə ustalıqla toxuyub.

Mübariz atasının barmaqla göstərdiyi səmtə baxdı. Tavanın küncündə hörümçək tor qurmuşdu. Torun bir tərəfində duran hörümçək səbr və əminliklə öz ovunu gözləyirdi.

– Bir bax, gör necə də çəkilib kənarda sakitcə ovunu gözləyir. Özünə xəlvət yer tapıb. Vay bu tora düşən milçəyin halına. Nə qədər çapalasa da, tordan çıxa bilməyəcək.

Mübariz atasının nə demək istədiyini, əlbəttə, başa düşmədi.

– Qadınlar da belədir. Torlarını qurub sakitcə gözləyirlər. Elə ki, tora bir kişi düşdü, həmin kişinin ətini yeyib, canındakı şirəni sümürürlər. Ha çapala, ha qışqır, görüm hayına kim çatacaq...

– Məncə, sən bir az şişirdirsən.

– İnan ki, şişirtmirəm. Hər şey mən dediyim kimidir.

– O tor mənə heç nə edə bilməz.

– Axmaq-axmaq danışma. Pələng kimi igidlər o tora düşəndə cücəyə dönürlər.

– Bəs nə etmək lazımdır?

– Dağıtmaq lazımdır. Yalnız dağıtmaq!

Qənimət ətrafa baxıb hörümçək torunu dağıtmaq üçün münasib əşya axtardı. Yastıqçırpanı gördü. Yastıqçırpanı əlinə alıb stulun üstünə çıxdı. “Ala, bu sən, bu da sənin qurduğun tor”, – deyərək toru hirslə dağıtdı.

Toru dağılmış hörümçək bir hissə torla yastıqçırpanın başına yapışmışdı. Qənimət barmaqlarının ucuyla hörümçəyi götürüb oğlunun ayaqları altına atdı.

– Öldür.

Mübariz altdan yuxarı atasının üzünə baxdı.

– Axı niyə, ata?

– Sənə deyirəm ki, öldür.

– Ürəyim gəlmir.

– Əgər tor quran canlılara qarşı qətiyyətli olmasan, həyatda heç nəyə nail ola bilməzsən. Öldür!

Atanın oğluna həyatın mənasını başa salmaq üçün əyani vəsaitə çevrilmiş hörümçək yavaş-yavaş küncə tərəf irəliləyir, bir yerdə gizlənib canını bu qəfil gəlmiş bəladan qurtarmaq istəyirdi.

– Gizlənmək istəyir, imkan vermə. Gizlənsə, bir müddətdən sonra yenə üzə çıxacaq. Əlverişli bir yer tapıb yenə tor quracaq. Məhv elə onu.

– Ata, mənim həşərat öldürməklə aram yoxdu.

Dediyi sözlərə oğlunu tamam inandırmaq üçün Qənimət bir az da çənə işlətməyin vacib olduğunu başa düşüb çıxışına davam etdi: